

Milli azadlıqdan
şirin nemət yoxdur!

# 907-ci düzəlişin yenidən bərpası Bayden-Blinken administrasiyasının nankorluğunun təzahürüdür



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

23 yanvar
2025-ci il,
cümə axşamı
№ 012 (6840)
Qiyməti
60 qəpik




# Davosda Azərbaycan gündəliyi

Bax səh. 2

# Azərbaycana olan etimad platforması

Bax səh. 2

## “Seçimimiz Yeni Azərbaycan Partiyasıdır!”

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ağsu rayonu, Ağsu bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Ağsu rayon təşkilatının sədri Füzuli Abdullayev qeyd edib ki, Azərbaycan yeni bir dövrə qədəm qoyub və bu dönəmdə də Yeni Azərbaycan Partiyası mühüm nailiyyətlərə imza atacaq. O, daim siyasi proseslərin önündə gedən YAP-ın bələdiyyə seçkilərinə də uğurla hazırlaşdığını deyib.

Seçki qərargahının üzvləri Vaqif Nəzərov, Camaləddin Zeynalov, bələdiyyə üzvlüyünə namizədlər Namiq Babaxanov və İsmayıl Əzizli YAP-ın seçki proqramı barədə ətraflı məlumat verərək bu zamana qədər əldə olunan nəticələri və qarşıda duran hədəfləri diqqətə çatdırıblar.

Seçicilər Xamis Mustafazadə, Zülfiyyə Rüstəmova, Nərminə Hüseynova və digərləri YAP-ın namizədlərinə səs verəcəklərini ifadə ediblər. “Yeni hədəflərə nail olmaq üçün seçimimiz bir daha Yeni Azərbaycan Partiyası olacaq”, - deyə vurğulanıb.

Bax səh. 5

## 6 milyon 52 min 721 seçki bülleteni çap edilib

Cəmi bir neçə gündən sonra - yanvarın 29-da Azərbaycanda növbəti bələdiyyə seçkiləri keçiriləcək. Bu, müstəqillik tariximizdə ölkənin bütün ərazisində yerli özünüidarəetmə orqanlarına keçiriləcək ilk seçkilər olacaq.

Qarşıdan gələn seçkilərə yüksək səviyyədə hazırlıqlar görülür. Bütün tədbirlər “Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı”na uyğun olaraq reallaşdırılır. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov vurğulayıb ki, bələdiyyə seçkilərinə hazırlıq prezident və parlament seçkilərinə hazırlıqdan geri qalmamalıdır.

Seçkilərə hazırlıq çərçivəsində son tədbirlər görülür. Artıq seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanılmasına başlanılıb. Mərkəzi Seçki Komissiyasının üzvləri, Katibliyin əməkdaşları, o cümlədən müvafiq dairə seçki komissiyalarının sədr və katiblərinin də iştirakı ilə reallaşdırılan proses açıq və şəffaf şəkildə həyata keçirilib, müşahidəçilər, media nümayəndələri və maraqlı seçki subyektlərinin...

Bax səh. 3

## Fransanın neokolonialist siyasəti ifşa olunur

Daim ədalət mövqeyindən çıxış edən Azərbaycan Afrikada, dənizaşırı ərazilərdə Fransanın ağır şərtlər altında davam etdirdiyi müstəmləkəçilik siyasətinə qarşı azadlıq mübarizəsinə qalxan xalqlara güclü mənəvi-siyasi dəstək verir. Ölkəmiz o mövqedən çıxış edir ki, XXI əsrdə keçmişin eybəcər qalığı olan müstəmləkəçiliyə yer olmamalıdır, Yelisey Sarayı xalqların azadlıq haqqını tanımalıdır.

Azərbaycanın prinsipial yanaşmasının ifadəsi olaraq Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkəçiliyinin ifşası istiqamətində daha bir cəsarətli addım atıb. Belə ki, yanvarın 21-də BTQ-nin təşkilatçılığı ilə Fransanın müstəmləkəçiliyi altında olan Reyunyon adasına həsr olunmuş beynəlxalq konfrans işə başlayıb. “Reyunyonun müstəqilliyi: Fransanın müstəmləkə mirasına və suverenlik yoluna baxış” adlı konfransa müstəqillik uğrunda mübarizə aparan Reyunyon xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların rəhbərləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, dekolonizasiya üzrə ekspertlər...

Bax səh. 4

## Konstitusiya dəyişir, Minsk qrupunun ləğvi üçün müraciət edilir...

Post-müharibə dövrünün ən mühüm reallığı kimi çıxış edən sülh prosesi məntiqi nəticəyə yaxınlaşmaqdadır. Azərbaycanın ortaya qoyduğu mövqe isə açıq və bəllidir - əbədi sülhün formalaşması üçün isə ən vacib şərt Ermənistanın uzun illərdir ki, davam edən əsassız iddialarından geri çəkilməsi, paralel olaraq ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı mövqeyini açıqlamasıdır. İrəvan yalnız rəsmi şəkildə Konstitusiyasında dəyişiklik etməklə sülh prosesinin ardıcıllığını təmin edə bilər - bu, gələcək kataklizmlərin yaranması ehtimalını da indidən aradan qaldırmış olur. Ermənistan Konstitusiyasını dəyişmədikcə bu ölkənin Azərbaycana qarşı ərazi iddialarının hər an eskalasiyaya çevrilmə təhlükəsi var. Beləliklə, yaxın zamanda bu dəyişikliyin edilməsi perspektivi sülhü də yaxınlaşdıran amil kimi çıxış edəcək. Eyni zamanda, artıq tarixi qovuşmuş “münaqişə” ilə bağlı hansısa vasitəçi qurumun mövcudluğunun saxlanılması da məntiqsizdir - o baxımdan, İrəvan sülhün əldə edilməsi üçün mühüm şərtlərdən biri...

Bax səh. 4



## Ukraynanın taleyi necə olacaq?

Bax səh. 7



## Qəzzada atəşkəs

Bax səh. 7

# Davosda Azərbaycan gündəliyi

## Prezident İlham Əliyev görüşlər keçirib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Andrey Plenkoviç COP29-un uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Prezident İlham Əliyev Xorvatiyanın Baş nazirinin COP29-da iştirakına görə təşəkkürünü bildirib. Söhbət zamanı COP29 çərçivəsində qlobal iqlim gündəliyinin irəli aparılması üçün çox mühüm qərarların qəbul edildiyi vurğulanıb. Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri ölkələrimiz arasında münasibətlərin mövcud səviyyəsini yüksək qiymətləndiriblər, xüsusilə enerji sahəsində olan əməkdaşlığı qeyd ediblər. Azərbaycanın bu gün Xorvatiyanın enerji təhlükəsizliyində oynadığı rol, ölkəmizdən Xorvatiyaya neft və qaz ixracı xüsusilə vurğulanıb, həmçinin qaz ixracının həcminin artırılması perspektivləri müzakirə olunub. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan bu gün 10 Avropa ölkəsinə qaz ixrac edir ki, onlardan da səkkizi Avropa İttifaqına üzv ölkələrdir. Vurğulanıb ki, Azərbaycan Avropa İttifaqı tərəfindən pan-Avropa enerji təchizatçısı kimi qiymətləndirilib. Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri məsələsinə dair fikir mübadiləsi aparıldı, hökumətlərarası komissiyanın rolu qeyd olunub. Xorvatiya Baş naziri dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət edib.

Prezident İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşüb. Odile Reno-Basso Azərbaycan Prezidentini COP29-un uğurla keçirilməsi münasibətilə təbrik edib, bu tədbirdə əldə olunmuş nəticələri yüksək qiymətləndirdiklərini vurğulayıb. O, ölkəmizlə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında həyata keçirilən bir sıra layihələrə toxunaraq, bu xüsusda Gəncə şəhərinin su təsərrüfatı ilə bağlı layihənin icra olunmasının bank tərəfindən maliyyələşdirilməsinə razılığın verildiyini bildirib.

Odile Reno-Basso ölkəmizin bank sektoru ilə həyata keçirilən layihələrin, o cümlədən kiçik və orta sahibkarlığın, qadın sahibkarlığının və dayanıqlı inkişaf layihələrinin dəstəklənməsi üçün ayrılan kredit xətləri barədə məlumat verib.





Ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan vacib layihələrdən danışan Prezident İlham Əliyev su təsərrüfatı, nəqliyyat, Bakı şəhərinin inkişafı istiqamətlərində icra olunan işləri qeyd edib.

Söhbət zamanı Avropaya yaşıl enerjinin ixracı, bununla bağlı həm Gürcüstanla, həm də Mərkəzi Asiya ölkələri ilə regional əməkdaşlıq layihələri və imkanları barədə müzakirələr aparılıb. Sonra imzalanma mərasimi olub. Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında "Gəncə şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması üçün kredit sazişi"ni iqtisadiyyat naziri Mikayıl Cabbarov və bankın birinci vitse-prezidenti Yurqen Riqterink imzalayıblar.

Daha sonra Prezident İlham Əliyev Davosda qarşı tərəfin müraciəti əsasında ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur ilə görüşüb. Söhbət zamanı Azərbaycanda dini azadlıqların təmin olunduğu, müxtəlif xalqların və dinlərin nümayəndələrinin ölkəmizdə tarixən sülh, əmin-amanlıq və harmoniya şəraitində yaşamaları məmnunluqla vurğulanıb. Görüşdə Azərbaycan-ABŞ əlaqələrinin Tramp dönəmində müsbət perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı bildirib ki, Bayden-Blinken administrasiyası dövründə ABŞ tərəfindən Azərbaycana qarşı qərəzli münasibət göstərilib və bunun da nəticəsində ikitərəfli əlaqələrimiz böhrana sürüklənib. Prezident İlham Əliyev 907-ci düzəlişin yenidən bərpasını məhz elə Bayden-Blinken administrasiyasının nankorluğunun təzahürü kimi dəyərləndirib. Söhbət zamanı Azərbaycan ilə Tramp administrasiyası arasında gələcək əlaqələr məsələsi müzakirə olunub.

Prezident İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb. Söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələr, energetika sahəsində əməkdaşlıq və regional təhlükəsizlik məsələləri müzakirə olunub.

# Azərbaycana olan etimad platforması

## Davos Forumunda ölkəmizin dünyadakı nüfuzu və əhəmiyyəti yüksək dəyərləndirilir

İsveçrənin Davos şəhərində sayca 55-ci Dünya İqtisadi Forumunun illik toplantısı işinə başlayıb. Bu il "Ağıllı əsr üçün əməkdaşlıq" devizi altında keçirilən forumda 5 əsas istiqamət üzrə müzakirələr təşkil olunacaq: İnkişafın yenidən dizayn edilməsi, intellektual əsrdə sənayelər, insan kapitalına investisiya, planetin mühafizəsi və etimadın bərpası. Forum çərçivəsində təşkil olunacaq sessiyalarda qlobal təhlükəsizlik, ticarət, iqtisadi artım, iş yerləri, iqlim və təbiətlə bağlı fəaliyyətlər, enerji keçidi, texnoloji pozulmalar, sağlamlıq və rifah üzrə irəliləyişlərlə bağlı müzakirələr baş tutacaq. Tədbirin başlıca məqsədi kollektiv fəaliyyət azadlığını bərpa etmək və liderlər arasında şəffaflıq, ardıcıllıq və hesabatlılıq kimi əsas prinsipləri gücləndirməkdir.






### Azərbaycanın liderinə olan xüsusi diqqət və ehtiram

55-ci Davos Forumunun ilk günü Azərbaycan üçün olduqca məhsuldar və səmərəli keçib. Prezident İlham Əliyevin Davosda qarşı tərəflərin müraciəti əsasında Almaniya Kansleri Olaf Şolts, İsrailin Prezidenti İsxak Hersoq, Latviya Prezidenti Edqars Rinkeviçs, İraq rəhbəri Camal Rəşid və digər şəxslərlə keçirdiyi görüşlərdə Azərbaycan ilə həmin ölkələr arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi barədə geniş fikir mübadiləsi aparılıb. Biznes dairələrinin qarşılıqlı səfərlərinin təşkilinin, onlar arasında birbaşa təmasların yaradılmasının vacibliyi qeyd olunub.

Azərbaycanın dövlət başçısının dünyanın nəhəng investisiya və maliyyə şirkətlərinin rəhbərləri ilə də görüşləri yaddaqalan olub. Onların sırasında "The Goldman Sachs Group İnc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen ilə görüşü xüsusi vurğulanmalıdır. Görüşdə Azərbaycan ilə "The Goldman Sachs Group Inc." şirkəti arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, ölkəmizlə "The Goldman Sachs Group Inc." ilə arasında 2010-cu ildən uğurlu əməkdaşlıq qurulub. 1869-cu ildə təsis edilmiş və mənzil-qərargahı Nyu-York şəhərində yerləşən bu investisiya şirkəti 40-dan çox ölkədə fəaliyyət göstərir və müxtəlif siniflər üzrə 2,8 trilyon dollar dəyərində aktivləri idarə edir.

Həmçinin, "OliverWyman Group" şirkəti də qlobal investisiya sektorunda nüfuzu ilə fərqlənir. Prezident İlham Əliyevlə həmin şirkətin baş icraçı direktoru Nik Studer ilə görüş zamanı Azərbaycanın iqtisadi transformasiya prosesinin, sığorta, maliyyə bazarının müxtəlif istiqamətlərinin inkişafı, enerji sektorunda, o cümlədən ənənəvi və "yaşıl enerji" sahələrində həyata keçirilən layihələr barədə geniş fikir mübadiləsi aparılıb. Bu görüş "OliverWyman Group" şirkətinin Azərbaycanın yeni iqtisadi layihələrinə sərmayə qoyması baxımından mühüm əhəmiyyət kəsb edir.

Dünya iqtisadiyyatında özünəməxsus mövqeyi ilə tanınan digər bir şirkətin - "DP World"in icraçı direktoru Sultan Əhməd bin Sulaim ilə Azərbaycan Prezidentinin görüşü də iqtisadi-maliyyə əməkdaşlığı baxımından səmərəli olub. Bu, Orta Dəhlizdə strateji yer tutan Azərbaycanın beynəlxalq logistika bazarlarında üstün mövqe qazanmasında mühüm rol oynaya bilər.



### İqtisadi güc mərkəzlərinin dialoqu

Davos İqitsadi Forumu mühüm qlobal platforma kimi dünyanın aparıcı dövlət və hökumət başçılarını, biznes, media, eyni zamanda vətəndaş cəmiyyəti liderlərini bir araya gətirir. Bu baxımdan təsir və əhatə baxımından Davos İqitsadi Forumu dünyanın ən böyük forumu hesab olunur. Bir həftə ərzində, toplantıda 100-dən çox hökumət və dövlət başçısı, aparıcı beynəlxalq təşkilatların rəhbərləri və forumun 1000 tərəfdaş şirkəti, eləcə də vətəndaş cəmiyyətinin liderləri, qabaqcıl ekspertlər, gənc liderlər, sosial sahibkarlar və media subyektləri aktual məsələləri müzakirə edəcəklər.

İqtisadi xarakter daşımasına baxmayaraq, Davos Forumu dünya siyasətinə, beynəlxalq münasibətlərə ciddi təsirə malikdir. Forum iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır. Qlobal iqtisadi böhranın, milyonlarla insanın yaşayışına, ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təsir edən siyasi münaqişələrin davam etdiyi, ərzaq çatışmazlığı probleminin mövcud olduğu indiki dövrdə Davos Forumu ümumdünya məsələlərin müzakirəsi və vacib qərarların qəbulunda əlverişli mühit deməkdir.

Forum dünyanın iqtisadi coğrafiyasında yeni təşəbbüskarlığa, o cümlədən enerji-nəqliyyat layihələrinin gerçəkləşməsinə siyasi dəstəyi də ifadə edir. Bu baxımdan Azərbaycanın liderliyi ilə regionda reallaşan enerji-nəqliyyat, bərpaolunan enerji layihələri qlobal iqtisadiyyata yeni istiqamətlər vermək baxımından əhəmiyyət kəsb edir.

### Dünya İqtisadi Forumunun mövqeyi

Davos İqitsadi Forumunun iclasları və panel sessiyalarında da Azərbaycanın dövlət başçısının çıxış və hadisələrə münasibəti xüsusi diqqəti cəlb edir. Ölkəmizin siyasi-iqtisadi, sosial, humanitar və digər sahələrdə əldə etdiyi inkişaf dinamikası barədə təfərrüatlı məlumatların diqqətə çatdırıldığı bu platformada Azərbaycan Prezidentinin iqtisadi mühitlə bağlı yanaşmaları, təklifləri qlobal auditoriyada maraqla qarşılanır. Bu, bir daha göstərir ki, Davos İqtisadi Forumunda Azərbaycana xüsusi önəm verilir, Cənubi Qafqazda lider mövqeyə malik olan ölkəmizin təşəbbüskarlığı ilə ərsəyə gələn enerji, nəqliyyat və digər regional layihələr dünya siyasi elitası üçün xüsusi əhəmiyyət kəsb edir.

Onu da qeyd etmək lazımdır ki, Davos ailəsinin Azərbaycana olan xüsusi etimad və hörmətinin əlaməti olaraq Davosda yüksək etimad qazanmış ölkədir. Ölkəmiz bu hörmətin əlaməti olaraq 2013-cü ilin aprelində Dünya İqtisadi Forumu öz iştirakçılarını Bakıda qəbul edib. Dünyanın nüfuzlu hökumət üzvləri, tanınmış biznes icmaları, iqtisadçılar, ekspertlər Bakıda bir araya gələrək bəşəriyyəti narahat edən mühüm iqtisadi məsələləri müzakirə ediblər.

Dünya İqtisadi Forumunun Bakıda keçirilməsi Azərbaycanın qlobal biznes ölkəsi kimi tanınması üçün də mühüm hadisə oldu. Forumun iqtisadiyyatın rəqabətə davamlılığı baxımından Azərbaycanı 2013-cü ildə 46-cı yerdə qərarlaşı və bu, Azərbaycanın iqtisadi inkişafına verilən mühüm qiymət kimi xarakterizə edilə bilər. Azərbaycan Dünya İqtisadi Forumunun sonrakı illərdə də qlobal hesabatlarında ən islahatçı və müxtəlif indikatorlar üzrə yüksək nailiyyətlər əldə edən ölkə kimi yer almaqla, dünyada iqtisadi inkişaf baxımından davamlı irəliləyişlər qazandığını təsdiqləyib. Məhz bu kontekstdən Davos İqtisadi Forumu Azərbaycan iqtisadiyyatının, müasir sənaye innovasiyaları və rəqəmsal sektorlarına daha çox sərmayənin cəlb edilməsinə zəmin yarada bilər.

**ELBRUS CƏFƏRLİ**




# Bələdiyyə seçkilərinə hazırlıq...

## 6 milyon 52 min 721 seçki bülleteni çap edilib

Cəmi bir neçə gündən sonra - yanvarın 29-da Azərbaycanda növbəti bələdiyyə seçkiləri keçiriləcək. Bu, müstəqillik tariximizdə ölkənin bütün ərazisində yerli özünüidarəetmə orqanlarına keçiriləcək ilk seçkilər olacaq.

Qarşıdan gələn seçkilərə yüksək səviyyədə hazırlıqlar görülür. Bütün tədbirlər "Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı"na uyğun olaraq reallaşdırılır. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov vurğulayıb ki, bələdiyyə seçkilərinə hazırlıq prezident və parlament seçkilərinə hazırlıqdan geri qalmamalıdır.

## Seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanılmasına başlanılıb

Seçkilərə hazırlıq çərçivəsində son tədbirlər görülür. Artıq seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanılmasına başlanılıb. Mərkəzi Seçki Komissiyasının üzvləri, Katibliyin əməkdaşları, o cümlədən müvafiq dairə seçki komissiyalarının sədr və katiblərinin də iştirakı ilə reallaşdırılan proses açıq və şəffaf şəkildə həyata keçirilib, müşahidəçilər, media nümayəndələri və maraqlı seçki subyektlərinin bülletenlərin paylanmasını yaxından izləyə bilmələri üçün hər cür şərait yaradılıb. Tədbir çərçivəsində media üçün brifinq də təşkil olunub, seçki bülletenlərinin hazırlanması və aidiyyəti üzrə çatdırılması ilə bağlı Seçki Məcəlləsinin tələbləri, prosesin qanunauyğun təşkili və ümumiyyətlə, bələdiyyə seçkilərinə hazırlıqların gedişi barədə ətraflı məlumat verilib, həmçinin jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

Seçki bülletenləri ilk gün - yanvarın 22-də Naxçıvan Muxtar Respublikasındakı seçki dairələrinə və respublikanın ucqar bölgələrini əhatə edən seçki dairələri də daxil olmaqla, ümumilikdə 54 seçki dairəsinə verilib. Növbəti gün isə seçki bülletenlərinin ölkənin digər bütün seçki dairələrinə təhvil verilərək. Bu gün prosesin tam yekunlaşdırılması nəzərdə tutulur.

Yüksək təhlükəsizlik şəraitində hazırlanan seçki bülletenləri dairə seçki komissiyalarına verildikdən sonra onların daşınması, saxlanması və məntəqə seçki komissiyalarına paylanması prosesinin mühafizəsi Daxili İşlər Nazirliyinin (DİN) aidiyyəti qurumları tərəfindən həyata keçirilir.

Qeyd edək ki, bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər qanunvericilikdə nəzərdə tutulmuş müddətdə Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edildikdən sonra, 2024-cü il yanvarın 11-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb və Komissiyanın qərarı ilə 6 milyon 52 min 721 seçki bülleteni çap olunub.

Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki bülletenləri dairə seçki komissiyalarına paylandıqdan sonra, səsvermə gününə azı 3 gün qalanadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcək.

## 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb



Bələdiyyə seçkiləri ilə bağlı əsas hədəflərdən biri şəffaflığın yüksək səviyyədə təmin edilməsidir. Bu məqsədlə ölkə ərazisindəki 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. MSK sədrinin müavini Rövzət Qasımovun təqdimatına əsasən, seçkidə aşkarlıq mühüm məsələ olduğundan, veb-kameralarla müşahidə aparılması önəmlidir. "İstənilən vətəndaş seçki prosesi ilə bağlı müfəssəl məlumat əldə edə biləcək. Seçki prosesində veb-kameralardan istifadə ölkədə 2008-ci ildən uğurla həyata keçirilən layihədir", - deyə MSK rəsmisi vurğulayıb.

Seçki məntəqələrində veb-kameraların quraşdırılması parametrlərində dəyişiklik edilib. Dəyişikliklər 89 seçki məntəqəsinin məlumatlarını əhatə edir. O cümlədən 62 seçki məntəqəsinin nömrəsi dəyişdirilib. 15 seçki məntəqəsində isə veb-kameraların quraşdırılması tamamilə yeni məsələdir. Rövzət Qasımov əlavə edib ki, veb-kamera quraşdırılan seçki məntəqələrinin siyahısı dərc edilir.

## Nə qədər seçici səs verəcək?

Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri üçün 5 milyon 961 min 625 seçicinin adı qeydiyyata alınıb. Məzahir Pənahov bildirib ki, 125 dairədən 7-si işğaldan azad edilən ərazilərdə yerləşir. Həmin dairələrdə seçkilər keçirilməyəcək. Buna görə də bələdiyyə seçkilərində səs verən seçicilərin sayı ümumi seçicilərin sayından az olur.

Bələdiyyə seçkilərində ilk dəfə səs verəcək seçicilərin sayı isə 29 min 172 nəfərdir. Rövzət Qasımovun verdiyi məlumata əsasən, seçki günü 153 şəxsin 18 yaşı tamam olur və onlar məhz həmin gün səsvermə hüququ əldə edəcəklər.

*Mübariz FEYİZLİ*

# Azərbaycan və Böyük Britaniya XİN başçıları müzakirə aparıb

## Ölkələr arasında bir çox istiqamətlər üzrə əlaqələrin daha da dərinləşdirilməsi böyük əhəmiyyət daşıyır




Yanvarın 22-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə dövlət katibi Devid Ləmmi arasında telefon danışığı baş tutub. Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin məlumatına görə, telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq gündəliyinin perspektivləri, habelə mövcud regional vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı durumu müzakirə olunub.

Böyük Britaniyanın XİN başçısı əvvəlcə 20 Yanvar faciəsi və dekabrın 25-də Bakı-Qroznı reysi ilə uçuş həyata keçirmiş təyyarəmizin faciəvi şəkildə qəzaya uğraması ilə bağlı bir daha başsağlığını bildirib. Britaniyanın faciənin səbəblərinin araşdırılması və təhqiqat prosesində hər zaman dəstək verməyə hazır olduğunu deyib.

Ceyhun Bayramov başsağlığına və göstərilən həmrəyliyə görə təşəkkür edib, təyyarə qəzasının səbəblərinin araşdırılması üzrə görülən işlər barədə məlumat verib.

Azərbaycanla Birləşmiş Krallıq arasında siyasi, iqtisadi, alternativ enerji, humanitar və digər sahələrdə münasibətlərin geniş perspektivə malik olduğu, əlaqələrin inkişafında qarşılıqlı səfərlərin və siyasi dialoqun intensivləşdirilməsinin, iki ölkə arasında tərəfdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsinin əhəmiyyəti qeyd olunub.

Ölkəmizi BMT-nin İqlim Dəyişməsi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu ev sahibliyi münasibətilə təbrik edən Britaniya naziri iqlim dəyişikliyi ilə mübarizə sahəsində birgə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Nazir bölgədəki mövcud vəziyyət və sülh prosesi barədə məlumat verərək, sülh sazişi və delimitasiya üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistan konstitusiyasında davam edən ərazi iddialarının prosesə maneçilik törədən səbəb olduğunu diqqətə çatdırıb.

Telefon danışığı gedişatında, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Türkiyənin ölkəmizdəki səfiri Qərbi Azərbaycan İcmasına vida ziyarəti edib



Ölkəmizdə fəaliyyət müddətini başa vurmaqda olan Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı yanvarın 22-də Qərbi Azərbaycan İcmasına vida ziyarəti edib.

AZƏRTAC xəbər verir ki, İcmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli əvvəlcə Türkiyənin Bolu vilayətinin Kartalkaya qəsəbəsində baş vermiş yanğınla bağlı qardaş ölkənin diplomatına başsağlığını ifadə edib.

Əziz Ələkbərli iki qardaş ölkə arasında münasibətlərin daha da dərinləşməsinə verdiyi töhfələrə və Qərbi Azərbaycan məsələsində göstərdiyi mənəvi dəstəyə görə səfirə təşəkkür edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Cahit Bağçı Azərbaycanda səfir kimi fəaliyyətinin onda silinməz xatirələr buraxdığını qeyd edərək, insan hüquqları məsələsi olan Qərbi Azərbaycan mövzusuna Türkiyənin həmişə dəstək verəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# İnflyasiya riski yoxdur

## Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb




Mərkəzi Bankın (AMB) İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 7,25 faiz, eyni zamanda müvafiq olaraq, faiz dəhlizinin aşağı həddi 6,25, yuxarı həddi isə 8,25 faiz səviyyəsində dəyişməz saxlanılıb. Yəni, MB 2024-cü il dekabrın 18-də açıqladığı sonuncu qərarından sonra uçot siyasətində yenə də dəyişiklik etməyib. Uçot dərəcəsinin dəyişməz saxlanılması ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəfdə (4±2 faiz) olması, inflyasiyanın daxili və xarici amillərinin dinamikası nəzərə alınmaqla qəbul olunub.

**Xarici sektor göstəriciləri əlverişlidir**

Mövcud qərar onu göstərir ki, MB uçot və faiz dərəcələrinin parametrlərində heç bir dəyişiklik etmədən sabit pul siyasəti yürüdülməsini prioritet hesab edir.

Sabit uçot dərəcəsi siyasəti ilə bağlı qərarlar ona dəlalət edir ki, ölkəmizdə inflyasiya amilləri nəzarət edilən səviyyədədir və artım riski yoxdur.

Uçot dərəcələrinin müəyyənləşməsində xüsusi rol oynayan inflyasiyanın mövcud çərçivəsinin formalaşmasına bir neçə amil ciddi təsir göstərir ki, onlardan biri olan xarici sektor göstəriciləri əlverişli olaraq qalır. 2024-cü ildə tədiyə balansının cari əməliyyatlar hesabının başlıca komponenti olan xarici ticarət balansında 5,5 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb. Bu şəraitdə 2024-cü ildə valyuta bazarında sabitlik qorunub, Mərkəzi Bankın keçirdiyi bütün hərraclarda valyutaya tələb tam qarşılanıb. 2024-cü ilin sonuna Mərkəzi Bankın valyuta ehtiyatları 11 milyard dollar təşkil edib. Cari əməliyyatlar hesabında proqnozlaşdırılan profisit (5,5 milyard dollar) 2025-ci ildə də valyuta bazarında sabitliyin təmin ediləcəyini gözləməyə əsas verir.

Yeri gəlmişkən, 2025-ci il yanvarın 2-də kommunal sektorda bəzi tariflərin tənzimlənməsi ilə bağlı qərarın inflyasiyaya artırıcı təsirinin cari il üzrə 0,5 faiz bənd təsirinin olacağı ehtimal edilir.

**Cari ildə inflyasiya 5,5 faiz ehtimal edilir**

İnflyasiya ilə bağlı həm Azərbaycan hökumətinin, həm də beynəlxalq institutların gözləntiləri ümidvericidir. Niderlandın "ING Group" analitik tədqiqat şirkətinin bu günlərdə dərc etdiyi hesabatda 2025-ci ildə 4,7 faiz, 2026-cı ildə isə 4,5 faiz səviyyəsində proqnozlaşdırılır. "ING Group" 2025-ci ilin sonunadək uçot dərəcəsinin 7,25 faiz səviyyəsində qalacağını da ehtimal edir.

Birləşmiş Millətlər Təşkilatının (BMT) proqnozlarına görə, 2024-cü ildə Azərbaycanda orta illik inflyasiya 5 faiz, 2025-ci ildə 3,9 faiz təşkil edəcək. Beynəlxalq Valyuta Fondunun qiymətləndirməsinə görə, qiymət indeksi cari ildə 3,5 faiz, 2025-ci ildə 5 faiz, növbəti illərdə isə 4 faiz olacaq. Dünya Bankının proqnozlarında isə inflyasiyanın 2024-cü ildə 3 faiz, 2025-ci ildə 3,5 faiz, 2026-cı ildə 4 faiz təşkil edəcəyi qeyd olunur. "Standard & Poor's" beynəlxalq reytinq agentliyinin iyun ayında açıqladığı yeni sənəddə Azərbaycanda 2024-cü il üzrə orta illik inflyasiyanın 2,9 faiz səviyyəsində proqnozlaşdırıldığı, 2025-2027-ci illərdə isə



orta illik inflyasiya gözləntilərinin 3-4,2 faiz olacağı bildirilir.

Mərkəzi Bankın proqnozlarına görə, 2025-ci ildə inflyasiya 5,5 faiz, 2026-cı ildə isə 3,8 faiz səviyyəsində fərz edilir.

**Risk faktorları nəzərə alınacaq**

Bütün bu sabit gözləntilərə baxmayaraq, inflyasiya ilə mübarizə tədbirləri prioritet faktor kimi diqqətdə saxlanılacaq və iqtisadi siyasətin əsas çərçivə hədəflərinə uyğun olaraq bütün iqtisadi qurumlar bu prosesə cəlb edəcək. MB-nın rəhbəri bildirib ki, qarşıdakı dövrdə inflyasiya göstəricisi xarici və daxili amillərdən asılı olacaq. İnflyasiya bizim gözlədiyimiz istiqamətdə davam edərsə, yəni inflyasiya hədəf diapozonunda və daha aşağı səviyyələrdə formalaşarsa, bu zaman Mərkəzi Bank öz pul siyasətini yumşaltma istiqamətində fəaliyyəti nəzərdən keçirəcək.

Bununla yanaşı, MB inflyasiya hədəfinə nail olunması ilə bağlı mümkün risklərin reallaşması halında müvafiq şəkildə reaksiya verəcək. Qanunvericiliklə müəyyən olunmuş mandatına uyğun olaraq qiymət sabitliyini təmin etmək üçün sərəncamındakı bütün vasitələrdən istifadə edəcək.

Bu onu deməyə əsas verir ki, Mərkəzi Bank mövcud monetar şərtlər çərçivəsində anti-inflyasiya tədbirlərinə dəstəyini davam etdirəcək, eyni zamanda inflyasiyanın hədəf diapozonu daxilində saxlanılması və inflyasiya gözləntilərinin sabitləşdirilməsi üçün hökumətlə koordinasiyalı şəkildə fəaliyyətini davam etdirməyi düşünür.

Uçot dərəcəsi ilə bağlı növbəti qərarlar yenə də xarici və daxili amillərə uyğun olaraq müəyyənləşəcək. Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərar barədə məlumat mart ayının əvvəllərində açıqlanacaq. Bu dövr ərzində uçot dərəcəsi xarici bazarlar, ölkədəki cari iqtisadi vəziyyət və inflyasiya səviyyəsi nəzərə alınaraq qərar veriləcək.

*E.CƏFƏRLİ*

# Konstitusiya dəyişir, Minsk qrupunun ləğvi üçün müraciət edilir...

## Ermənistan Azərbaycanın tələblərini yerinə yetirəcəkmi?

Post-müharibə dövrünün ən mühüm reallığı kimi çıxış edən sülh prosesi məntiqi nəticəyə yaxınlaşmaqdadır. Azərbaycanın ortaya qoyduğu mövqe isə açıq və bəllidir - əbədi sülhün formalaşması üçün isə ən vacib şərt Ermənistanın uzun illərdir ki, davam edən əsassız iddialarından geri çəkilməsi, paralel olaraq ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı mövqeyini açıqlamasıdır. İrəvan yalnız rəsmi şəkildə Konstitusiyasında dəyişiklik etməklə sülh prosesinin ardıcıllığını təmin edə bilər - bu, gələcək kataklizmlərin yaranması ehtimalını da indidən aradan qaldırmış olur. Ermənistan Konstitusiyasını dəyişmədikcə bu ölkənin Azərbaycana qarşı ərazi iddialarının hər an eskalasiyaya çevrilmə təhlükəsi var. Beləliklə, yaxın zamanda bu dəyişikliyin edilməsi perspektivi sülhü də yaxınlaşdıran amil kimi çıxış edəcək. Eyni zamanda, artıq tarixi qovuşmuş "münaqişə" ilə bağlı hansısa vasitəçi qurumun mövcudluğunun saxlanılması da məntiqsizdir - o baxımdan, İrəvan sülhün əldə edilməsi üçün mühüm şərtlərdən biri olan Minsk qrupunun ləğvi ilə bağlı rəsmi müraciət etməlidir. Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, Ermənistanla postmünaqişə mərhələsində təmaslar davam edir. Burada bir neçə istiqamət var. Xarici işlər nazirləri daha çox sülh müqaviləsi layihəsi üzrə danışıqlar aparırlar, mütəmadi şəkildə görüşlər keçirilir: "Ötən il bir neçə belə görüş olub. Görüşlərarası təmaslar davam edir. Hazırda növbəti görüşün yeri və vaxtı barədə konkret razılaşma yoxdur. Güman edirik ki, 2025-ci ildə də bu proses davam edəcək. Saziş layihəsinin preambul hissəsi və 17 maddədən 15-i razılaşdırılıb. İki maddə hələ ki, tam razılaşdırılmayıb. Danışıqlar davam edir. Azərbaycan ictimaiyyəti də bilir ki, sülh sazişinin mətnindən başqa burada digər ciddi və açıq məsələ var. Bu da Ermənistanın konstitusiyasında və bir sıra normativ-hüquqi aktlarında Azərbaycana qarşı ərazi iddialarının hələ də mövcudluğudur. Bu istiqamətdə Ermənistandan ciddi və əməli addımlar gözləyirik. Bəyanatları və mesajların hamısını eşidirik və real addımlarda ciddi çatışmazlıq görürük".

### Konstitusiya dəyişir - əsassız iddialar çıxarılacaqmı?

Diqqət yetirsək, Ermənistan rəsmiləri zaman-zaman sülhün vacibliyi və ya İrəvanın sülhü dəstəkləməsi barədə bəyanatlar versə də, nəticə etibarı ilə bu açıqlamalar manipulyasiyadan uzağa getmir. Çünki bu ölkə real sülh prosesinə yaxınlaşmır, sadəcə onun "ətrafında" fırlanır. Bunun faktoloji sübutu var - məsələn, Ermənistanın ədliyyə naziri Srbuhi Qalyan yanvarın 14-də keçirilən mətbuat konfransında bildirib ki, "bizim vəzifəmiz odur ki, 2026-cı il parlament seçkilərinə qədər yeni Konstitusiyanın mətni olsun". Onun sözlərinə görə, "məxməri inqilab"dan dərhal sonra yeni konstitusiya məsələsi qaldırılıb, hətta konsepsiya yaradılıb, amma iş məntiqi nəticəyə gəlməyib. "Yeni nazir kimi mən hesab edirəm ki, xalqın bəyənə və ya rədd edə biləcəyi yeni konstitusiya layihəsi hazırlamaq lazımdır", - Qalyan deyib.



Nazir hesab edir ki, hazırkı konstitusiyada sosial əhəmiyyətli suallara cavab yoxdur. Amma nazir "İstiqlal Bəyannaməsi"nə istinadın yeni konstitusiyada qalıb-qalmayacağı sualına cavab verməyib: "Mətn üzərində qrup işləyir. Tezliklə komissiya işini bərpa edəcək. Nəticədə əsas qərarı xalq verəcək".

Göründüyü kimi, konstitusiya dəyişikliyi haqda danışan ölkə rəsmisi bu gün ən vacib sayılan məsələyə toxunmur - bu da onu göstərir ki, Ermənistan yalnız vizual xarakterli "sülhpərvərlik" daşıyıcısıdır. Alt qatda isə onlar öz iddialarından geri çəkilmək istəmirlər.

### Minsk qrupu ilə bağlı qərar zamanıdır...

Bu fakt isə onu göstərir ki, Ermənistan özünün konstitusiya manipulyasiyasını davam etdirir - Azərbaycanın tələbi ilə bağlı açıq mətn səsləndirilmir. Halbuki, baş nazir Nikol Paşinyan 2024-cü ildə tamamilə yeni Konstitusiya layihəsi hazırlamaq üçün komissiya yaratmaq barədə sərəncam imzalamışdı. Sonradan yaranan komissiya fəaliyyət göstərmədi. Yenə də ortada fikir var, iradə və qətiyyət isə yoxdur...

Eyni vəziyyət ATƏT-in Minsk qrupu ilə bağlı da yaşanmaqdadır. Məsələn, bir neçə gün öncə, Ermənistanın baş nazirinin mətbuat katibi Nazeli Baqdasaryan sosial şəbəkələrdə yazmışdı ki, "Ermənistan ATƏT-ə Minsk qrupunun ləğvi məsələsi ilə bağlı müraciət etmək imkanını nəzərdən keçirir". N.Baqdasaryan Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və sülh sazişi imzalamaqla bunu təsdiqləməyə hazır olduğunu demişdi.

Axı, nəzərdən keçiriləsi hansı məsələ var? Ermənistan özü də başa düşür ki, real olaraq ATƏT-in Minsk qrupu aktuallığını itirib. Sadəcə olaraq, bu məsələnin "əldən çıxarılmaması" yenə də revanşist maraqlara əsaslanır - Ermənistan düşünür ki, hansısa dayaq və ya dəstəklə gələcəkdə siyasi situasiyanı dəyişmək imkanı qazana. Həmin vaxt yenidən Minsk qrupunu dövrəyə salma kimi ehtimallara "inanır".

### Növbəti eskalasiya arzusu - İrəvan özünə ziyan vurur...

Beləliklə, üzdə bu kimi "sülhə xidmət edən" açıqlamalar verən, yanaşmalar sərgiləyən Ermənistan alt qatda yenə də özünün destruktiv fəaliyyətini davam etdirir - silahlanır, bölgədə təhdid yaratmaqda davam edir, regional nəqliyyat kommunikasiyalarının açılmasına mane olur, nəhayət ki, sülhdən yayınır. Bəzi məqamlarda, Ermənistan cəmiyyətinin bəzi kəsimləri hətta ABŞ ilə bağlanan strateji sazişi ölkənin "növbəti eskalasiya arzusu" kimi dəyərləndirir. Bu, olduqca böyük bir təhlükədir.



Paralel olaraq nəzərə alsaq ki, Ermənistan KTMT-dəki fəaliyyətini hələ tam yekunlaşdırmayıb, həmin saziş daha böyük miqyaslı eskalasiyaya yolaçma təhlükəsi formalaşdırır. Ermənistanın sərhəd bölgələrində Aİ-nin müşahidə missiyasının fəaliyyətinə xitam verilməməsi bir daha onu göstərir ki, İrəvan heç də iddia etdiyi kimi sülh uğrunda çalışmır, kənar qüvvələri prosesə daxil etmək niyyətindədir. Bir sözlə, Ermənistan hakimiyyəti dildə sülh haqqında danışsa da, bu istiqamətdə əməli fəaliyyət ortaya qoymur. Onların sülhü gecikdirməsi isə ölkə daxilindəki digər qruplar üçün fürsətə çevrilir. Məsələn, ötən il bəzi "mitinq"lərlə yadda qalan Baqrat Qalstanyan müəyyən pauzadan sonra yenidən ortaya çıxıb. O, yanvarın 11-də müraciət yayıb. Hakimiyyət orqanlarının sülh gündəmini şərh edən arxiyepiskop bunu yalan adlandırıb. "Sülh məhv və bataqlıq deyil, okean sülhü, qalib sülh deməkdir. Müqəddəs Miladdan sonra bu ilk görüşlə biz mübarizəmizin yeni mərhələsinə başlayırıq və əminəm ki, bu mərhələdə biz əsl sülhü təmin edəcək yekun qələbəyə nail olacağıq".

Göründüyü kimi, Ermənistan hakimiyyətinin yaratdığı qeyri-müəyyən durum həm bölgəyə, həm də Ermənistanın özünə ziyan vurmaqdadır. Bunun aradan qaldırılmasının isə tək yolu var - bütün iddiaları kənara qoyaraq səmimi şəkildə sülhü imzalamaq...

*P.İSMAYILOV*

# Fransanın neokolonialist siyasəti ifşa olunur

Daim ədalət mövqeyindən çıxış edən Azərbaycan Afrikada, dənizaşırı ərazilərdə Fransanın ağır şərtlər altında davam etdirdiyi müstəmləkəçilik siyasətinə qarşı azadlıq mübarizəsinə qalxan xalqlara güclü mənəvi-siyasi dəstək verir. Ölkəmiz o mövqedən çıxış edir ki, XXI əsrdə keçmişin eybəcər qalığı olan müstəmləkəçiliyə yer olmamalıdır, Yelisey Sarayı xalqların azadlıq haqqını tanımalıdır.

Azərbaycanın prinsipial yanaşmasının ifadəsi olaraq Bakı Təşəbbüs Qrupu Fransa müstəmləkəçiliyinin ifşası istiqamətində daha bir cəsarətli addım atıb. Belə ki, yanvarın 21-də BTQ-nin təşkilatçılığı ilə Fransanın müstəmləkəçiliyi altında olan Reyunyon adasına həsr olunmuş beynəlxalq konfrans işə başlayıb. "Reyunyonun müstəqilliyi: Fransanın müstəmləkə mirasına və suverenlik yoluna baxış" adlı konfransa müstəqillik uğrunda mübarizə aparan Reyunyon xalqının təmsilçiləri, habelə

## BTQ ilə "Ka Ubuntu" Müstəqillik Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb

müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların rəhbərləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar qatılıblar.

### Sərhəd tanımayan Fransa müstəmləkəçiliyi

Yelisey Sarayının apardığı siyasət kifayət qədər ziddiyyətlidir. Az qala bütün dünyaya demokratiya dərsi vermək iddialarında bulunan bir ölkənin müstəmləkə ərazilərində hüquqazidd əməllər törətməsinin heç bir məntiqi izahı yoxdur. Bəşəriyyətin yüksək inkişaf səviyyəsinə çatdığı XXI yüzillikdə müstəmləkəçilik və sümürmə siyasətindən əl çəkməməsi Fransa üçün böyük üzqarasıdır. Bu gün Fransa dünya üzrə müstəmləkəçilik siyasətini bu və ya digər formada davam etdirən azsaylı dövlətlərdən biridir. Bu ölkənin ərazisinin 18 faizini dənizaşırı koloniyalar təşkil edir. Bu torpaqlarda təxminən 2,6 milyon nəfər əhali yaşayır. Koloniyalar müxtəlif siyasi statuslara malikdir. Müstəmləkələrin siyahısına Atlantik okeanında yerləşən Qvadelupa, Martinika, Sen-Martin, Sen-Bartelemi, Sent-Pyer və Mikelon, Hind okeanında Reunion, Mayotte və Fransız Cənub və Antarktika əraziləri, Sakit okeanda Fransız Polineziyası, Yeni Kaledoniya, Uollis və Futuna, Cənubi Amerikada isə Fransız Qvianası və digər ölkələr daxildir. Onların ən yaxını Fransadan təxminən 4 min kilometr, ən uzaqda olanı isə 17 min kilometr məsafədə yerləşir.

Fransanın müstəmləkəçilik siyasəti sərhəd tanımır. Yelisey Sarayı müstəmləkə ölkələrində yerli xalqların mənafeyinə zidd addımlar atır. Məsələ burasındadır ki, Fransa müstəmləkəçilik tarixində öz nəzarətində saxladığı ölkələrə yaxşı heç nə verməyib. Əvəzində isə sümürmə siyasətinin əhatə dairəsini genişləndirib, yerli əhalinin hüquqlarını daha qəddarcasına pozub, onları məqsədyönlü şəkildə assimilyasiyaya məruz qoyub, soyqırımları həyata keçirib.

### 13 koloniyadan biri - Reyunyon

Reyunyon adası 1500-cü illərin əvvəllərində portuqaliyalı səyyahlar tərəfindən kəşf edilib. Ada 1642-ci ildə XIV Lüdovikin dövründə fransızlar tərəfindən ələ keçirilib və Burbon adası adlandırılıb. Üç il sonra isə ilk daimi koloniya qurulub.

Reyunyon adasında müstəmləkəçilik irsi iqtisadi, siyasi və sosial sahələrdə öz təsirini davamlı şəkildə hiss etdirir. Fransanın adadakı dominant mövqeyi və güclü təsir mexanizmləri yerli xalqın siyasi və iqtisadi müstəqilliyə nail olmaq uğrunda göstərdiyi səylərə ciddi maneələr yaradır. İqtisadi sahədə bu təsir, adanın xarici ticarət və investisiyalar baxımından Fransadan yüksək dərəcədə asılı olması, yerli istehsalın zəifləməsi və işsizlik səviyyəsinin yüksək qalması kimi məsələlərdə özünü göstərir.

Siyasi sahədə isə Fransa tərəfindən tətbiq olunan idarəetmə modelləri və institusional mexanizmlər Reyunyon xalqının öz müqəddəratını təyin etmək hüququnu məhdudlaşdırmaqla yanaşı, onların qərarvermə prosesində iştirakını da minimuma endirir.

Bu gün Reyunyon xalqının öz müqəddəratını təyinetmə hüququnun tanınmasının aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması çox vacibdir. BTQ-nun təşkilatçılığı ilə baş tutan konfrans Reyunyon xalqının öz gələcəyini müstəqil şəkildə müəyyən etməsi üçün beynəlxalq dəstəyin vacibliyinə dair çağırış platforması rolunu oynayır. "Fransanın dünyada 13 koloniyası var. Bu koloniyalardan ikisində insanlar məskunlaşmayıb, digər ərazilərlə əməkdaşlıq edirik. Reyunyon Fransa və Niderland müstəmləkəçiliyindən əziyyət çəkir. Orada insanlığa qarşı amansız cinayətlər törədilib". Bu sözləri Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov konfransdakı çıxışında deyib. O bildirib ki, bu gün də Reyunyonda müstəmləkəçilik davam edir.







### İnsanlıq əleyhinə cinayətlər

Yelisey Sarayının Reyunyonda törətdiyi insanlıq əleyhinə cinayətləri sayıb qurtarmaq mümkün deyil. Bu barədə konfransda geniş müzakirələr aparılıb. "Ka Ubuntu" təşkilatının Reyunyon bölməsinin koordinatoru Benjamin Kleman bildirib ki, Fransa tərəfindən qanunsuz olaraq regionda çoxsaylı abortlar həyata keçirilib. Fransa heyvanlar üçün istifadə olunan dərmanlar vasitəsilə bu cinayətləri törədib. B.Kleman vurğulayıb ki, 1960-cı illərdə Reyunyon adası Fransanın departamenti olaraq, ciddi sosial və iqtisadi problemlərlə qarşılaşmışdı. Yerli əhalinin sayı artmaqda davam edirdi ki, bu da adada sosial problemlərin kəskinləşməsinə səbəb olurdu. Fransa Reyunyonda uşaqların öz kimliyini unutması üçün məqsədli şəkildə addımlar atırdı. Belə ki, Reyunyona xas olan Afrika mənşəli adlara malik uşaqlara Fransa metropoliyasına xas adlar verilərək, təzə adlarla şəxsiyyət vəsiqələri paylanırdı. 1982-ci ilə qədər davam etmiş bu məqsədyönlü köç nəticəsində öz ailə bağlarını itirmiş uşaqlar çox ciddi psixoloji problemlər yaşayıblar.

"Fransa mədəniyyətimizi assimilyasiyaya uğratmaq istəyir ki, kimliyimizi unudaq. Fransanın imperialist siyasəti Reyunyon iqtisadiyyatına mənfi təsir göstərir. Bizim üçün müstəqillik daha yaxşı bir gələcək deməkdi", - deyə "Ka Ubuntu" müstəqillik hərəkatının sədri Romen Katambara konfransdakı çıxışında vurğulayıb. O bildirib ki, Reyunyon adasında hökm sürən iqtisadi çətinliklərə paralel olaraq yerli əhalinin müxtəlif icmaları arasındakı gərginliyi də vurğulamaq lazımdır. Fransa rəsmiləri guya Reyunyonda mütəşəkkil cinayətlərin artması, ətraf mühitə ziyanın vurulması, sosial vəziyyətin pisləşməsində mayottalıların təqsirkar olması təbliğatını aparmaqla ada əhalisi daxilində həmrəyliyi pozmaq, azadlıq meylərinin qarşısının almaq məqsədi güdür.

### İmzalanan Anlaşma Memorandumu

Bakı Təşəbbüs Qrupu fəaliyyət göstərdiyi qısa müddət ərzində artıq beynəlxalq platformaya çevrilib. Müstəmləkə ərazilərində azadlıq mübarizəsinə qalxan xalqlar quruma ümid yeri kimi baxırlar. Öz növbəsində daha genişmiqyaslı fəaliyyəti hədəfləyən BTQ müstəmləkəçilik əleyhinə mübarizə aparan beynəlxalq təşkilatlarla əlaqələrini genişləndirir. "Reyunyonun müstəqilliyi: Fransanın müstəmləkə mirasına və suverenlik yoluna baxış" adlı konfrans çərçivəsində Bakı Təşəbbüs Qrupu və "Ka Ubuntu" Müstəqillik Təşkilatı arasında Anlaşma Memorandumu imzalanıb.

Anlaşma Memorandumunu Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov və "Ka Ubuntu" Müstəqillik Hərəkatının sədri Romen Katambara imzalayıblar.

Qeyd edək ki, Anlaşma Memorandumu yalnız siyasi müstəvidə deyil, BTQ və "Ka Ubuntu" Müstəqillik Hərəkatı arasında təhsil və səhiyyə sahələrində də əməkdaşlığı əhatə edəcək.

*Mübariz Abdullayev*

# “Xalqımız yenə də müdrik seçim edəcək!”



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Xətai rayonu, Xətai bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Xətai rayon təşkilatının sədr müavini Vüqar Hüseynov Yeni Azərbaycan Partiyasının öz səmərəli fəaliyyəti ilə Azərbaycanın tərəqqisində müstəsna rol oynadığını diqqətə çatdırıb: “Şübhə yoxdur ki, xalqın inam və etimad ünvanı olan Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizin inkişafına xidmət edəcək, Azərbaycana yeni nailiyyətlər qazandıracaq”.



Təşviqat qrupunun üzvləri Meyvəddin Ramaldanov, Mirfaiq Mirheydərli, Xəyyam Fərzəliyev, Cəmil Fətullayev və Mustafa Şükürov seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə çağırıblar. Onlar əminliklərini ifadə ediblər ki, xalqımız yenə də müdrik seçim edərək YAP-ın namizədlərinə səs verəcək.



Seçicilərdən Nizami Hüseynov, Pərviz Umudov və başqaları qüdrətli Azərbaycanla qürur duyduqlarını və milli maraqlara xidmət edən Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədləri dəstəkləyəcəklərini bildiriblər.

# “Növbəti inamlı qələbəyə imza atacağıq!”




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Nəsimi rayonu, Nəsimi bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin müasir tələblər səviyyəsində qurulması məqsədilə həyata keçirilən tədbirlərdən danışıb. O bildirib ki, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi və yerli özünüidarəetmənin səmərəliliyinin yüksəldilməsi əsas hədəflərdəndir.

Yeni Azərbaycan Partiyasının hər zaman bütün seçkilərə yüksək səviyyədə hazırlaşdığını söyləyən A.Süleymanov “Xalqımızın dəstəyi ilə növbəti inamlı qələbəyə imza atacağıq”, - deyə vurğulayıb.





Təşviqat qrupunun üzvləri Ruhəngiz Heydərova, Azər Əhmədov, bələdiyyə üzvlüyünə namizəd Xalid Kərimov YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verib, seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə və layiqli namizədlərə səs verməyə çağırıblar.

# Yerli özünüidarəetmənin təkmilləşdirilməsi başlıca vəzifələrdəndir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şamaxı rayonu, Çarhan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı qeyd edib ki, ölkəmizdə yeni dövrün reallıqlarına uyğun hədəflər uğurla reallaşdırılır, sosial-iqtisadi inkişafın davam etdirilməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

Seçki qərargahının üzvü Ağarza Bayramov və təşviqat qrupunun üzvü Fuad Səmiyev ölkəmizdə bələdiyyələrin ötən dövr ərzindəki fəaliyyəti barədə danışıblar. Qeyd olunub ki, bələdiyyələr indiyədək sosial məsələlərin həlli, məşğulluğun təmin edilməsi və bir sıra mühüm layihələrin icrasında əhəmiyyətli rol oynayıb. Qarşıda duran əsas vəzifələrin yerli özünüidarəetmənin təkmilləşdirilməsi və vətəndaş məmnunluğunun artırılması olduğunu söyləyən natiqlər seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə çağırıblar.



# İslahatlar ardıcıl xarakter daşıyır



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Sumqayıt şəhəri, Sumqayıt bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP İdarə Heyətinin üzvü, partiyanın Sumqayıt şəhər təşkilatının sədri Ramiz Hüseynov qeyd edib ki, müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin zəngin siyasi təcrübəsi, möhkəm iradəsi və qətiyyətli liderliyi ilə ardıcıl uğurlara imza atır: “Bütün sahələrdə olduğu kimi, sosial siyasət sahəsində də islahatlar, o cümlədən əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində tədbirlər davamlı xarakter daşıyır”.



Seçki qərargahının üzvləri Şahin Şəfiyev, Sovet Şükürov, Hümbət Quliyev, Zahir Həsənov, bələdiyyə üzvlüyünə namizədlər Leyla Şükürova, Həsən Xıdırov və Akif Şahbazov Yeni Azərbaycan Partiyasının seçki proqramı haqqında ətraflı məlumat veriblər. Onlar seçicilərin etimad göstərəcəyi təqdirdə, YAP üzvlərinin bələdiyyələrin inkişafı üçün səylə çalışacaqlarını vurğulayaraq görüş iştirakçılarını partiyanın namizədlərinə səs verməyə çağırıblar.



Seçicilər Xatirə Əhədova, Qorxmaz Ələkbərov və başqaları Yeni Azərbaycan Partiyasını dəstəklədiklərini və bələdiyyə seçkilərində partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər.

# Qüdrətli Azərbaycan iftixar mənbəyimizdir!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qax rayonu, Əlibəyli bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Qax rayon təşkilatı sədrinin müavini İlkin Abbasov bələdiyyə seçkilərinin əhəmiyyəti barədə danışıb. O əminliklə ifadə edib ki, YAP-a böyük inam və etimad bəsləyən Azərbaycan xalqı bu dəfə də seçkilərdə fəal iştirak edərək qələbələr partiyasına dəstək verəcək.

Seçki qərargahının üzvü Rahin Əliyev, bələdiyyə üzvlüyünə namizədlər Arif Əhmədov və Nikala Aslamazaşvili bildiriblər ki, Heydər Əliyev ideyalarının təntənəsinin təzahürü olan müasir Azərbaycan inkişaf yolunda inamla irəliləməkdədir. “Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan misilsiz uğurlara imza ataraq qüdrətini daha da artırıb. Qalib Azərbaycan reallığı sonsuz iftixar mənbəyimizdir. Biz daha böyük uğurlara - yeni qələbələrə nail olmaq gücündəyik”, - deyə vurğulanıb. Natiqlər seçiciləri bələdiyyə seçkilərində fəal olmağa və YAP-ın namizədlərinə səs verməyə çağırıblar.



# “Seçimimiz Yeni Azərbaycan Partiyasıdır!”



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ağsu rayonu, Ağsu bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Ağsu rayon təşkilatının sədri Füzuli Abdullayev qeyd edib ki, Azərbaycan yeni bir dövrə qədəm qoyub və bu dönəmdə də Yeni Azərbaycan Partiyası mühüm nailiyyətlərə imza atacaq. O, daim siyasi proseslərin önündə gedən YAP-ın bələdiyyə seçkilərinə də uğurla hazırlaşdığını deyib.



Seçki qərargahının üzvləri Vaqif Nəzərov, Camaləddin Zeynalov, bələdiyyə üzvlüyünə namizədlər Namiq Babaxanov və İsmayıl Əzizli YAP-ın seçki proqramı barədə ətraflı məlumat verərək bu zamana qədər əldə olunan nəticələri və qarşıda duran hədəfləri diqqətə çatdırıblar.



Seçicilər Xamis Mustafazadə, Zülfiyyə Rüstəmova, Nərminə Hüseynova və digərləri YAP-ın namizədlərinə səs verəcəklərini ifadə ediblər. “Yeni hədəflərə nail olmaq üçün seçimimiz bir daha Yeni Azərbaycan Partiyası olacaq”, - deyə vurğulanıb.

# Xalqa xidmət ali məqsəddir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Abşeron rayonu, Qobu bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev bildirib ki, bu gün sıralarında 740 mindən çox üzvü birləşdirən Yeni Azərbaycan Partiyası gücünü xalqın dəstəyindən alır. "Təbii ki, xalqa xidmət ali məqsəddir. YAP milli maraqlara uyğun səmərəli fəaliyyəti ilə ümumxalq partiyası olduğunu sübuta yetirib", - deyə o vurğulayıb.



Tədbirdə çıxış edən Milli Məclisin deputatı Nigar Məmmədova Prezident İlham Əliyevin Azərbaycan xalqının firavan gələcəyinə xidmət edən uzaqgörən siyasəti nəticəsində ölkəmizin tarixi nailiyyətlər qazandığını bildirib. Onun sözlərinə görə, əldə olunan uğurların təməlində xalq-iqtidar birliyi dayanır.



Bələdiyyə üzvlüyünə namizədlər Araz Nəcəfov və Həsən Hacıağayev YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək görüş iştirakçılarını seçkilərdə fəal iştirak etməyə və Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.

# Bələdiyyələrin inkişafı üçün geniş imkanlar yaranıb

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Binəqədi rayonu, Binəqədi qəsəbə bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.





YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov bələdiyyələrin cəmiyyət həyatındakı rolundan bəhs edib. Qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən institusional islahatlar bütün sahələrdə davamlı yüksəlişi təmin etməklə bərabər, bələdiyyə institutunun da inkişafı üçün münbit zəmin formalaşdıraraq geniş imkanlar və yeni perspektivlər yaradıb.



Bələdiyyə üzvlüyünə namizədlər Fərhad Əliyev və Rauf Sadıqov bələdiyyələrin inkişafı ilə bağlı YAP-ın seçki platformasında əksini tapan məsələləri, o cümlədən qarşıda duran hədəfləri diqqətə çatdırıb, seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıblar.

# YAP milli maraqların qətiyyətli müdafiəçisidir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Masallı rayonu, Masallı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev bildirib ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qalib xalqın nümayəndələri kimi möhtəşəm uğurlara şahidlik edir və gələcəyə doğru inamla addımlayırıq. O, bütün sahələrdə aparılan islahatların müsbət nəticələr verdiyini və yerli özünüidarəetmənin təkmilləşdirilməsinin diqqət mərkəzində olduğunu bildirib.



Seçki qərargahının üzvü Mehriban Sultanova, bələdiyyə üzvlüyünə namizədlər Tural Ağamməmdov və Şəfa Allahverdiyeva YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər. "YAP milli maraqların qətiyyətli müdafiəçisidir", - deyə vurğulayan natiqlər seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıblar.

# Söz ilə əməlin birliyi...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Cəlilabad rayonu, Cəlilabad bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı ölkəmizdə həyata keçirilən çoxşaxəli islahatların əhəmiyyətindən bəhs edib. Ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində mühüm addımların atıldığını deyən M.Mirxaslı yeni çağırışlardan irəli gələn vəzifələrin yerinə yetirilməsinin vacibliyini diqqətə çatdırıb.





Bələdiyyə üzvlüyünə namizədlər Vahid Mirzəyev, Günel Məmmədova və Yeganə Rzayeva YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər. Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası xalqın inam və etimadını yüksək səviyyədə doğruldub. Heydər Əliyev ideyalarına sadiqlik, söz ilə əməlin birliyi partiyanın cəmiyyətdə nüfuzunun artmasını təmin edib. "Qarşıdan bələdiyyə seçkiləri də xalqın partiyamıza növbəti inam və etimadı ilə əlamətdar olacaq", - deyə vurğulanıb.

# "Partiyamıza inamımız sonsuzdur!"




Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Zərdab rayonu, Zərdab, Çallı və Məmmədqasımlı bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşləri keçirilib.

YAP Zərdab rayon təşkilatının sədri İlkin Əliyev Azərbaycanın qazandığı bütün uğur və qələbələrin Heydər Əliyev yolu ilə bağlı olduğunu söyləyib: "Xalqımız Heydər Əliyev ideyalarına sadiqdir və bunu seçkilərdə Yeni Azərbaycan Partiyasına dəstəyi ilə ifadə edir".



Bələdiyyə üzvlüyünə namizədlər Bəhruz Qurbanov, Elbəy Əsədov, Natiq Hüseynov, Ramilə Qurbanzadə, Hikmət Məmmədov, Sənan Əhmədzadə, Kənan İsazadə və Radim Məmmədov ölkəmizdə növbəti bələdiyyə seçkilərinin yeni dövrün çağırışları fonunda keçirildiyini söyləyiblər. Onlar YAP-ın seçki proqramında əksini tapan hədəflərin xalqın dəstəyi ilə həyata keçiriləcəyini əminliklə ifadə edərək seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə çağırıblar.



Seçicilər İlhamə Qəribova, Azad Kərimli, Hasil Bağırov və digərləri Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini ifadə ediblər. "Partiyamıza inamımız sonsuzdur!",- deyə vurğulanıb.

# Qürurla addımlayırıq!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Sədərək rayonu, Sədərək bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Sədərək rayon təşkilatının sədri Arif Qasımov Yeni Azərbaycan Partiyasının hər zaman milli maraqlara, mövcud reallıqlar və çağırışlara uyğun fəaliyyət göstərdiyini qeyd edib: "Bu, insanların partiyamıza olan inamını daha da möhkəmləndirib. Bu gün qürur hissi ilə qeyd edirik ki, Yeni Azərbaycan Partiyası olduqca yüksək nüfuza və müsbət imicə malikdir. Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri bu reallığın daha bir təsdiqi olacaqdır".



Seçki qərargahının üzvləri Vüsalə Əliyeva, Sirac Qarayev, Əli Ağayev, bələdiyyə üzvlüyünə namizədlər Zakir Zamanov, İlqar Sadiqov, Fərhad Rzayev və Gülayə Cəfərova Azərbaycan dünyaya qüdrətini nümayiş etdirdiyini və yeni zəfərlərə imza atmaq əzmində olduğunu vurğulayıblar. "Xalqımız bu reallıqları görür və müsbət qiymətləndirir, Yeni Azərbaycan Partiyasının fəaliyyətini təqdir edir. Yeni qələbələrə doğru inam və qürurla addımlayırıq", - deyə qeyd olunub. Natiqlər seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə çağırıblar.



Seçicilər Nicat Bəymmməmdli, Sərxan Rəhimov, Yalçın Bayramzadə və digərləri bələdiyyə seçkilərində YAP-ın namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# Sivil cəmiyyətlərin əsas meyarı...

## Söz azadlığı təmin edilən ölkələr hər zaman öndədir

Fikir, söz və məlumat azadlığı demokratik cəmiyyətlərdə əsas inkişaf prioritetlərindən sayılır. Söz, məlumat azadlığı və cəmiyyətin inkişafı bir-birilə harmonik surətdə bağlıdır. Demokratik düşüncənin sistematik şəkildə cəmiyyətin həyatına siraət etməsi üçün bu amillər ən vacib şərtlərə çevrilir - dövlət-vətəndaş münasibətlərinin inkişafı, milli vəhdətin formalaşması, ümumən cəmiyyətin bütün strukturları üzrə inkişaf tendensiyasının yaranması üçün söz və fikir azadlığı amili vacib əhəmiyyət daşıyır. Bu ən əsası vətəndaş cəmiyyətinin inkişafına xüsusi təkan verir. İnkişaf isə təkamül tələb edən prosesdir. Buna birdən-birə nail olmaq mümkün deyil.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"a bölüşən Milli Məclisin İnsan hüquqları komitəsinin üzvü Bəhruz Məhərrəmovun sözlərinə görə, ictimai-siyasi fəallığı ilə seçilən demokratik toplumlar azad medianın hüquqi bazasını qurmağa və daim təkmilləşdirməyə çalışırlar: "Lakin həqiqətin gözünə dik baxmaq lazımdır. Dünyanın heç bir ölkəsində azad medianın yaranması və təşəkkülü prosesi asan olmayıb. O xalqlar ki, söz, fikir azadlığı, plüralizmə əsaslanan medianın sərbəst fəaliyyət göstərməsinin ümumi mənafe üçün faydalı və alternativsiz olduğunu qəbul ediblər, təbii ki, onlar vətəndaş cəmiyyəti quruculuğunda daha üstün mövqelər qazana biliblər.

### Söz azadlığı mətbuatdan başlayır...

Cəmiyyətin əsas azadlıqları, daha dəqiq desək, fikir, söz və məlumat azadlıqları mətbuatdan başlayır. Dövrün gerçək təsvirini vermək kimi mühüm bir missiyanı mətbuat yerinə yetirir. Bu baxımdan mətbuat cəmiyyəti olduğu kimi təsvir edən bir güzgüdür ki, bu güzgü cəmiyyətin bütün həqiqətlərini özündə əks etdirir. Mətbuatın tərəfsiz olaraq cəmiyyətə xidmət etməsi isə bu güzgünün şəffaflığını, nəticədə cəmiyyətin fikir, söz və məlumat azadlığını şərtləndirir. Plüralist cəmiyyətin yetişməsi üçün fikir, söz, məlumat azadlığı kimi insan azadlıqlarının nə qədər vacib məsələ olduğu şübhə belə doğura bilməz. Çünki daim tərəqqiyə can atan insanın fikir, söz, məlumat azadlığı olmadan tərəqqiyə nail olması qeyri-mümkündür".

Deputat həmçinin qeyd edib ki, fikir, söz və məlumat azadlığı, plüralizm əsas insan hüquq və azadlıqlarının tərkib hissəsidir və təcrübədə, onların inkişafından deyil, təmin edilməsindən söhbət gedə bilər: "Azərbaycan Respublikasının Konstitusiyası və sahəvi qanunlar ölkəmizdə istisnasız olaraq, bütün əsas insan hüquq və azadlıqlarının qorunmasına təminat verir.



Ölkənin hüquqi-normativ aktlarının əsasını Konstitusiyada təsbit olunmuş hüquqi mexanizmlər təşkil etdiyi üçün "Məlumat azadlığı haqqında", "Fərdi

### Qanunvericilik bazası

məlumatlar haqqında", "İnformasiya əldə etmək haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və digər qanunvericilik aktları söz, fikir, məlumat azadlığının təmin edilməsinə maneə yarada biləcək amillərin özünü hüquqi müstəvidə büruzə verməsinə imkan vermir.

### Fikir azadlığına əngəl olmaq mümkün deyil...

Millət vəkili hesab edir ki, ölkəmizdə söz və fikir azadlığı üçün hansısa məhdudiyyətlər yoxdur: "İnsanlar indi düşüncələrini gizlətmir. Mövqelər, fikirlər təkcə ənənəvi media, yaxud yeni media vasitələri ilə paylaşılmır. Sosial şəbəkələr sərhədsiz və məhdudiyyətsizdir. Dünyada peşəkar jurnalistika ilə bərabər vətəndaş jurnalistikası adlandırdığımız blogerlik, vlogerlik və s. kimi yeni fəaliyyət imkanları var. Ona görə də indi söz və fikir azadlığına əngəl olmaq mümkün deyil. Bəzən sosial şəbəkələrdə fikir, söz və məlumat azadlığı adı altında bütün bəşəri dəyərlər belə tapdalanır. Əsassız, təsdiqlənməmiş, yalan, insanları şantaj edən materiallar, məlumatlar yayılır. İnsanlar tənqid yox, təhqir olunur. Təbii ki, bunlar həmin azadlıqların məhdudiyyətsizliyidir. Amma əsassız paylaşımlara, böhtan və şantaja görə məsuliyyət var və bütün ölkələrdə bu kimi hallar qanunla tənzimlənir. Təbii ki, Azərbaycanda da bu hallar qanunvericiliklə tənzimlənir. Ona görə də "fikir və söz azadlığına məhdudiyyətlər var" fikri ilə birmənalı razılaşmaq mümkün deyil".

*Yeganə BAYRAMOVA*

# Qəzzada atəşkəs: girovlar azad edilir...

## İsrail İordan çayının qərb sahilində əməliyyata başladı



İsrail ilə HƏMAS arasında razılaşdırılmış altı mərhələlik atəşkəs prosesi yanvarın 19-dan qüvvəyə minib. İlkin mərhələdə gözlənildiyi və razılaşdırıldığı kimi, girovların qarşılıqlı şəkildə azad olunmasına başlanılıb. Atəşkəsin ertəsi günü İsrail HƏMAS hərəkatı ilə Qəzza zolağında saxlanılan girovların azad edilməsi və atəşkəsin tətbiqi ilə bağlı razılaşma çərçivəsində 90 fələstinli məhbusu azad edib. İsrail Həbsxanalar Xidmətinin məlumatına görə, fələstinli məhbuslar yanvarın 19-da azad edilən üç israilli girovun müqabilində azad edilib. "The Times of Israel" yazır ki, azadlığa buraxılanların 78 nəfəri İordan çayının qərb sahilinin, 12 nəfəri isə Şərqi Qüdsün sakinidir. "Ynet" portalının məlumatına görə, buraxılanların 69-u qadın, o cümlədən 1-i azyaşlı, 8-i gənc, 12-si isə kişidir. Onlar nisbətən yüngül cinayətlərə görə məhkum edilmişdilər. Qeyd edək ki, razılaşmaya əsasən birinci mərhələdə 737 fələstinli məhbus azad ediləcək. Onlardan 296-sı ömürlük həbs cəzasına məhkum edilib. Eyni zamanda, 236 fələstinli azad edildikdən sonra dərhal üçüncü ölkələrə - əsasən Qətərə və ya Türkiyəyə gedəcəklər.

**"Dəmir divar" əməliyyatı başladı...**

Bu arada Qəzza bölgəsində HƏMAS-la atəşkəsin elan edilməsinin ardından İsrail İordan çayının qərb sahilində genişmiqyaslı antiterror əməliyyatlarına başlayıb. Əməliyyata İsrail ordusu, polisi və təhlükəsizlik xidmətləri cəlb edilib. bununla bağlı İsrailin Baş naziri Benyamin Netanyahu açıqlama verib. O bildirib ki, yanvarın 21-də Fələstinin İordan çayının qərb sahilində yerləşən Cenin şəhərində terrorun kökünü kəsmək üçün geniş və əhəmiyyətli hərbi əməliyyata başlanılıb. "Bu, bizim məqsədimizə çatmaq üçün daha bir addımdır - həmin ərazilərdə təhlükəsizliyin gücləndirilməsidir", - deyə Netanyahu vurğulayıb.



"The Times of Israel"in yazdığına görə, "Dəmir divar" adlanan Cenin əməliyyatı bir neçə gün davam edəcək. Yayılan xəbərə görə, hərbi əməliyyatlar nəticəsində azı 8 fələstinli ölüb, 35-ə yaxın adam yaralanıb.

**Qərargah rəisi istefa verdi, hakim koalisiya dağıldı...**

Bu arada İsrail Müdafiə Qüvvələrinin (IDF) Baş Qərargah rəisi, general-leytenant Herzi Halevi 2025-ci il martın 6-da istefa vermək niyyətində olduğunu açıqlayıb və 2023-cü ilin oktyabrında HƏMAS-ın hücumunu dəf etməkdə İsrail ordusunun uğursuzluğuna" görə məsuliyyəti öz üzərinə götürüb. "Komandirliyim altında olan ordu İsrail vətəndaşlarını qorumaq missiyasını yerinə yetirə bilmədi və bu dəhşətli uğursuzluğa görə məsuliyyət həmişə mənim üzərimdə olacaq", - deyə Halevi qərarını ölkənin müdafiə naziri İsrael Katza göndərdiyi məktubda izah edib. Katz öz növbəsində Haleviyə minnətdarlığını bildirib. Onu baş qərargah rəisi vəzifəsində əvəz edəcək şəxsin adı isə hələ açıqlanmayıb.

2022-ci ilin dekabrından İsrail Silahlı Qüvvələrinin Baş Qərargah rəisi olan 57 yaşlı general İsrail ordusunun əhəmiyyətli qazanclar əldə etdiyi bir vaxtda vəzifəsini tərk etdiyini bildirib - etiraf edib ki, İsrailin hərbi məqsədləri bütün"lüklə əldə edilməyib. Halevinin ardınca İDF Cənub Komandanlığının rəhbəri general-mayor Yaron Finkelman da istefa verdiyini açıqlayıb. Onun komandanlıq sahəsinə İsrailin cənubunda Qəzza zolağı ilə həmsərhəd olan ərazilər daxildir. Finkelman da qərarının səbəbi kimi HƏMAS-ın hücumlarını göstərib. Bildirib ki, 2023-cü il oktyabrın 7-də terrorçuların hücumuna məruz qalan mülki əhalinin müdafiəsi ilə bağlı üzərinə düşən vəzifəni yerinə yetirə bilməyib.

"The Times of Israel" qəzeti ifrat sağçı Yəhudi Gücü partiyasının bəyanatına istinadən xəbər verib ki, partiyanın lideri, İsrailin milli təhlükəsizlik naziri İtamar Ben-Qvir də istefa verib. O, Baş nazir Benyamin Netanyahunu "bütün ideoloji qırmızı xətləri keçməkdə" günahlandıraraq, HƏMAS ilə razılaşmanı "terrorizmin tam qələbəsi" adlandırıb.

Ben-Qvirin partiya yoldaşları, İrs naziri Amihay Eliyaqu və onun həmkarı İsaak Vaserlauf da öz vəzifələrini tərk ediblər. Bundan əlavə, partiya hakim koalisiyadan çıxdığını bəyan edib. Bəyanatda deyilir ki, HƏMAS-a qarşı hərbi əməliyyatlar bərpa olunarsa və tam qələbəyə qədər davam edərsə, geri qayıtmağa hazırdır.

**İsrail Prezidenti: Dua edirik ki...**

İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Davos İqtisadi Forumunda bildirib ki, biz Livanda, Suriyada tarixi dəyişiklik görürük, Qəzza zolağında da tarixi dəyişikliyi görəcəyimizə ümid edirik, bu, böyük səy tələb edəcək. İsrail Prezidenti bildirib ki, Qəzzada razılaşmanın mənası, hər şeyin açarı girovlarla bağlıdır. "Bu razılaşmaya nail olmaq çox çətin, çox ağrılı idi. Mən bu gün Qətərin Baş naziri Şeyx Məhəmməd Əl Tani ilə görüşdüm, ona inanılmaz səylərinə, eləcə də bütün digər vasitəçilərə, Misirə və əlbəttə ki, ABŞ-a, gedən Administrasiyaya və gələn Administrasiyaya təşəkkür etmək istəyirəm. Hələ də Qəzzada çox girovumuz var. Dua edirik ki, digər girovlar razılaşmaya uyğun olaraq, mümkün qədər tez geri dönsünlər".

**20 min silahlı öldürülüb...**

Qeyd edək ki, İsrail Müdafiə Qüvvələri (IDF) Qəzza zolağında təxminən 15 ay davam edən hərbi əməliyyatlar zamanı Fələstinin HƏMAS hərəkatından 20 minə yaxın silahlını öldürüb. İsrail Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Herzi Halevi bildirib ki, HƏMAS-ın hərbi qanadı çox böyük zərbə alıb. Yəhya Sinvardan başlayaraq təşkilatın rəhbərliyinin əksəriyyəti öldürülüb. İsrail ordusu 20 minə yaxın HƏMAS nümayəndəsini məhv edib. Eyni zamanda, quru əməliyyatı və Qəzza zolağının bombalanması nəticəsində 47 min fələstinli həlak olub, 110 mindən çox insan yaralanıb.

*P.İSMAYILOV*

# Ukraynanın taleyi necə olacaq?

## ABŞ ilə Rusiya danışıqlar masası arxasına keçməyə hazırlaşır

Prezident səlahiyyətlərinin icrasına başlayan Donald Tramp ötən il seçki kampaniyası dövründə söz verdiyi kimi, Rusiya-Ukrayna müharibəsini bitirmək üçün real addımlar atmağa hazırlaşır. Rusiyada Kremlə yaxın mənbələrin məlumatına görə, dünyanın 2 nəhəng dövlətinin prezidenti - Donald Tramp ilə Vladimir Putin arasında görüşün



keçirilməsinə hazırlıq gedir. İnaqurasiya mərasimindən sonra Donald Tramp öz videomüraciətində bildirib ki, Rusiya lideri Vladimir Putinlə danışıq yaxın günlərdə baş tuta bilər.

Birləşmiş Ştatların yeni Dövlət katibi Marko Rubio da "NBS News" telekanalına müsahibəsində ölkəsinin Ukraynadakı münaqişənin davamlı, sülh yolu ilə həllinə nail olmaq niyyətində olduğunu açıqlayıb. "Bu münaqişəyə son qoymaq ABŞ-ın rəsmi siyasəti olacaq və biz buna davamlı və sabit şəkildə nail olmaq üçün əlimizdən gələni edəcəyik. Biz istəmirik ki, bu sabitlik iki, üç və ya dörd ildən sonra yenidən müharibəyə çevrilsin", - Rubio qeyd edib.

**Kiyev sülh üçün ABŞ-la birgə işləməyə hazırdır**

Görüşün təfərrüatları ilə bağlı məlumat verilməsə də, əsas müzakirə predmenti - yeni qlobal nizamın müəyyən olunması, xüsusilə Şərqi Avropa, Arktika, Sakit okean və Yaxın Şərqdə mövcud vəziyyətin nizamlanması, qarşılıqlı anlaşma əsasında geostrateji və geosiyasi maraqların bölüşməsi olacağı iddia olunur. Görüşdə ikitərəfli iqtisadi münasibətlərin yenidən qurulması və enerji məsələləri də müzakirə oluna bilər. Qeyd edək ki, Ukrayna məsələsi ABŞ-Rusiya münasibətlərində ən mühüm gündəm hesab olunur.

Bir məqamı da qeyd edək ki, Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ-Rusiya münasibətlərində baş verəcək proseslərdən çox ciddi narahatdır. V.Zelenski Donald Trampın güclü adam olduğunu və Ukraynanın həqiqi sülhə nail olmaq üçün ABŞ ilə birlikdə işləməyə hazır olduğunu bildirib.

**Müharibənin bitməsi ehtimalı...**

Maraqlıdır, görəsən, yaxın zamanda baş tutması ehtimal olunan Tramp-Putin görüşündə Ukraynanın taleyi ilə bağlı proses hansı istiqamətdə inkişaf edəcək? Hər iki lider bu məsələdə qarşılıqlı güzəştlərə gedəcəkmi? Ukraynada müharibənin yaxın zamanda bitməsi mümkün olacaqmı?

Məsələ ilə bağlı politoloq Aytən Qurbanova "Yeni Azərbaycan" qəzetinə açıqlamasında qeyd edib ki, yaxın zamanda Ukraynada müharibənin bitməsi ehtimal olunmur.

"Trampın Amerika Birləşmiş Ştatlarının 47-ci prezidenti olaraq öz səlahiyyətlərinin icrasına başlaması ilə qlobal sistemdə hansı dəyişikliklərin ola biləcəyi ilə bağlı müzakirələr yenidən gündəmə gəlib. Xüsusilə də, Rusiya-Ukrayna müharibəsinin nə zaman bitəcəyi və atəşkəsin əldə olunması ilə bağlı razılığın mümkünlüyü məsələsi ən çox diqqət mərkəzində olan mövzudur. Hələ seçkiqabağı təşviqat dönəmində Trampın verdiyi bəyanatlara nəzər yetirdikdə, o davamlı şəkildə müharibənin baş verməsində Bayden administrasiyasını günahlandırırdı. İndi də bu mövqeyi dəyişməz olaraq qalır və kifayət qədər iddialı çıxışlarla müşayiət olunur. Bu nöqteyi-nəzərdən yanaşdıqda, ən qısa müddətdə atəşkəsin əldə olunması istiqamətində real addımların atılacağını ehtimal etmək mümkündür".

**Atəşkəs üçün şərtlər**

Politoloq bildirib ki, atəşkəsin əldə olunmasına qədər önəmli bir digər məsələ də ona hansı şərtlər əsasında nail olunmasıdır. "Ehtimallar və reallıq bəzən üst-üstə düşməyə bilər və belə olan şəraitdə Trampın verdiyi vədlərə nail olması üçün reallığın gözləntilərə uyğunlaşdırılması mütləqdir. Ukrayna üçün ən böyük gözlənti ərazi bütövlüyünün bərpa olunması olduğu halda Rusiyanın əsas hədəfi hazırda nəzarətində olan əraziləri legitimləşdirməkdir. Digər tərəfdən isə Avropanın bəzi güc mərkəzlərinin Rusiya-Ukrayna müharibəsi ilə bağlı gözləntiləri və maraqları heç də ABŞ-ın mövqeyi ilə üst-üstə düşmür. Ona görə də, bu reallıqlar kontekstində Trampın qısa müddətdə müharibəni tamamilə bitirməsi ehtimalı çox da mümkün görünməsə də, ilkin mərhələdə qısamüddətli atəşkəs ehtimalı istisna edilmir".

Aytən Qurbanovanın sözlərinə görə, bu məsələdə önəmli məqamlardan biri də Tramp və Putin arasındakı şəxsi münasibətlərin kifayət qədər yüksək səviyyədə olması faktıdır ki, bu da istisnasız olaraq, Ukraynada atəşin dayandırılması üçün dialoq masasının yenidən qurulmasına təsir edə bilər. Demək, 2025-ci ilin, hətta Trampın prezidentlik dönəminin sonuna qədər Ukrayna ilə Rusiya arasında müharibəni birmənalı şəkildə sonlandırmaq ehtimalı real olmasa da, atəşkəsin mövcud status-kvonun qorunması əsasında təmin edilməsi mümkündür.

*Yunis Abdullayev*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# Gözəl xətt göz oxşayır...

## 23 yanvar Beynəlxalq Əlyazma Günüdür

Gözəl xətt bəzi hallarda onun sahibinin savad və bilik səviyyəsinin göstəricisi kim qəbul edilir. Məlumdur ki, insanın xəttinə əsasən, onun xarakter və xasiyyətini müəyyən edən qrafologiya elmi var. Məsələn, kriminalistikada anonim şikayət və məktubların araşdırılması ilə məşğul olan mütəxəssislər var. Orta məktəbin aşağı siniflərində isə səliqəli və düzgün yazmaq üçün hüsnxətt öyrədilirdi.

Yeri gəlmişkən, hər il yanvarın 23-ü dünyada Əlyazma Günü kimi qeyd edilir. Əllə yazılan mətn onun müəllifinin daxili dünyasından, hiss və duyğularından soraq verən informasiyadır. Antik və intibah dövrlərində yazılanlar məhz əlyazma şəklində bu günə gəlib çıxıb. Məsələn, Rusiyada inqilabçıların, mütəfəkkirlərin, yazıçı və şairlərin çoxlu yazışmaları var və bu əlyazmalar onların fəaliyyətinin böyük bir hissəsini təşkil edir. Azərbaycan ədəbiyyatında isə Cəfər Cabbarlının Sona xanıma, Mikayıl Müşfiqin Dilbər xanıma, Hüseyn Cavidin ailə üzvlərinə məktubları məşhurdur.



### Gözəl xətt müalicə üsullarından biridir...

Mütəxəssislərin qənaətinə görə, əl yazısı və yaxşı xətt gözəlliyin, sağlamlığın qorunmasına və ömrün uzanmasına kömək edir. Məsələn, xəttatlığın geniş tətbiq olunduğu Yaponiya və Çində yazının müalicə üçün tətbiq olunmasının mümkünlüyü üzərində araşdırma aparılıb. Vaxtilə Pekin Qrafik Kommunikasiya İnstitutunda aparılan araşdırmaya görə, gözəl xəttə malik tələbələr daha sağlam və perspektivli olurlar. Həmin institutda aparılan tədqiqatlar nəticəsində böyük xəttatların çoxunun uzunömürlü olduğu müəyyən edilib.

### Azərbaycanın tanınmış xəttatları...



Hələ çap maşınları icad olunmamışdan əvvəl mütəfəkkirlərin, alim və şairlərin əsərlərinin üzü xəttatlar tərəfindən köçürülərək yayılıb. Yazı mədəniyyətinin formalaşmasında xəttatların rolu olduqca böyükdür. Alimlər qeyd edir ki, xəttatlıq islam aləmi tərəfindən mənimsənib istifadə edilən, ərəb hərflərinin müxtəlif formalarda yazılması ilə meydana gələn yazı sənətidir. İncəsənətin bir növü sayılmasa da, ayrıca sənət qolu kimi daim inkişafda olduğu bildirilən xəttatlığın islam dünyasının da mədəni dəyərlərini özündə əks etdirdiyi bildirilir.

Azərbaycanda bir çox tarixi abidənin kitabələrində ərəb əlifbası ilə gözəl xətt nümunələrinə rast gəlinir. Ən çox rast gəlinən nəsx xətləridir. Yeri gəlmişkən, xəttatların fəaliyyəti nəticəsində müxtəlif xətt növləri yaradılıb. Epiqrafik abidələrdə kufi, nəsx xətləri ilə yanaşı, süls, şikəstə və nəstəliq xətlərinə də rast gəlinir. Görkəmli Azərbaycan xəttatlarından Mübarək şah Zərrinqələm Təbrizi, Şeyx Əhməd Sührəvərdi, Xacə Mir Əli ibn İlyas Təbrizi, Cəfər Təbrizi bu sənətin inkişafında xüsusi rol oynayıblar. Bu gün Azərbaycanda Tahirə Abdullayeva, Seyfəddin Mənsimoğlu, Vüqar Məmmədov, Müzafəddin Əzizov kimi tanınmış xəttatlar var.

### Texnologiyalar çox şeyi arxa plana keçirib

Etiraf edək ki, elmi-texniki tərəqqi, müasir innovativ texnologiyalar çox şeyi arxa plana keçirib. Son illər müxtəlif mobil qurğular və qadjetlərin, elektron yazışmaların həyatımıza daxil olması ilə əlaqədar olaraq demək olar ki, əllə yazışmalardan istifadə olunmur. Orta məktəblərdə şagirdlər arasında dostluq yazışmaları, ailələrə böyük sevinc bəxş edən əsgər məktubları, sevgi məktubları... Təəssüf ki, artıq bunların hamısı arxada qalıb. İndi küçələrdə poçt qutuları, mənzillərdə poçt üçün, o cümlədən məktub üçün ayrılan guşələr də çox nadir hallarda gözə dəyir.

*Yeganə BAYRAMOVA*

# Balığı qatıqla, yemişi balla...

## Zəhərlənməmək üçün nə etməli?

Qida zəhərlənmələri bütün fəsillərdə rast gəlinən problemlərdən biridir. Məlumdur ki, payız-qış fəslində qida rasionunda bəzi dəyişikliklər baş verir. Xüsusilə havalar soyuyanda balıq, göbələk və konservləşdirilmiş məhsulların istifadəsi önə keçir. Belə olan halda zəhərlənmə halları da təbii olaraq artır.

Meyvə-tərəvəz yığılmamışdan bir-iki gün əvvəl dərmandan istifadə olunarsa və dərmanlamadan sonra yağış yağmayıbsa, həmçinin məhsullar təmiz yuyulmayıbsa, zəhərlənmə baş verə bilər. Qida məhsullarının düzgün şəraitdə saxlanılmaması da zəhərlənmələrə yol açır.

### İlkin yardım

Həkim-terapevt Şahvələd Məmmədov qida zəhərlənmələri zamanı diqqət edilməsi vacib olar məqamlarla bağlı “Yeni Azərbaycan”a açıqlama verib. Onun sözlərinə görə, qida zəhərlənməsi üçün bəzi hallarda inkubasiya dövrü bir neçə saat olur: “Məsələn, səhər hansısa süd məhsulu ilə qidalanan şəxs zəhərləndikdə özündə prodromal dövr yaşaya bilər. Prodromal dövr dedikdə ümumi zəiflik, halsızlıq, ürəkbulanma, qusma, ishal və bədən hərarətinin qalxması nəzərdə tutulur. İlk növbədə çalışmaq lazımdır ki, mədə-bağırsaq yuyulması həyata keçirilsin, bağırsaqtəmizləyici imalə edilsin. Bu mümkün olmasa, hər 10 kiloqram bədən çəkisinə 1 tablet olmaqla kömür dərman vasitəsini əzib 1 stəkan suya qatıb içmək lazımdır. Bunu içməklə toksinlərin qana keçməsinin və zəhərlənmənin inkişafının qarşısı alınır”.



### Nələri birgə yemək olmaz?

Terapevtin sözlərinə görə, elə qidalar var ki, onları birgə qəbul etmək problemlər yaradır: “Yemək çeşidinin müxtəlif olması, eyni vaxtda rəngarəng qidaların qəbulu ən azı mədə-bağırsaq pozulmaları, köp, qəbizlik yaradır. Qatıqla birlikdə balıq yemək olmaz. Bunları birlikdə yemək ağır xəstəliyə səbəb ola bilər. Yemişlə birlikdə bal yemək də çox ağır zəhərlənməyə şərait yaradır. Bundan başqa, qatıqla sirkə birlikdə yeməklərə istifadə olunanda zəhərlənmə yaratması mümkündür.

Südlə təzə pendir, südlə balıq, südlə qatıq da birlikdə yeyiləndə mədə-bağırsaq pozulmaları yaradır. Satışda sarı rəngdə, yağlı göbələklər olur, dadlı da olsa, qaynatmadan qovrulması zəhərlənmə yarada bilər. Üzəri gümüşü, falqaya bükülmüş və bişirilmiş əti qətiyyən yemək olmaz. Müəyyən edilib ki, bu, çox güclü bir kanserogendir, yəni xərçəng əmələ gəlməsinə səbəb olur.



Təndirdən təzə çıxmış toyuq ətini qətiyyən bükmək olmaz, əl yandırmayan hala gəldikdən sonra bükmək olar.

Süd, ayran və bananın birlikdə yeyilməsi mədə-bağırsaq pozulmasına səbəb ola bilər.



Ümumiyyətlə, çalışmaq lazımdır ki, yemək bir çeşiddən ibarət olsun, yemək çeşidləri artdıqca problemlər də artacaq”.

### Düzgün qablaşdırma vacibdir

Müasir dövrdə piştaxtalarda minlərlə eyni çeşidli məhsul görmək mümkündür. Bu səbəbdən də istehsalçılar alıcıların marağını cəlb etmək üçün müxtəlif dizaynlı qablaşdırmalardan istifadə edirlər. Xüsusən qida sektorunda istehlakçıların əksəriyyətində məhsul və onun istehsalçısı haqqında ilkin və güclü təəssürat qablaşdırmadan yaranır. Qida ilə birbaşa təmasda olan qablaşdırma materiallarının tərkibində olan maddələr qidaya təsir etməməlidir. Qablaşdırma düzgün seçilmədikdə qablaşdırma materialının tərkibində olan kimyəvi maddələr qidaya nüfuz edə bilər.

Qida məhsullarının qablaşdırılması üçün bir çox qablaşdırma materialı var ki, onların təkrar istifadəsi qadağandır. Təkrar istifadəsi qadağan edilən qablaşdırma materialına Pet (Polietilen tereftalat) qablaşdırmanı misal göstərmək olar ki, bu qablaşdırma materiallarının hazırlanmasında istifadə olunan kimyəvi maddələr təkrar istifadə zamanı plastikdən süzülür və insanın qanına, toxumasına yayılır. Bu kimi təsirlərə məruz qalan oqranizmdə xərçəng, immun sistemi funksiyasının zəifləməsi, hormonal pozğunluq və zəhərlənmə riski var.

*Yeganə BAYRAMOVA*

## İdman

### Azərbaycanlı hakimlər Türkiyə klublarının oyunlarına təyinat aldı



Azərbaycanın beynəlxalq dərəcəli hakimləri Avropa Voleybol Konfederasiyası (CEV) tərəfindən növbəti dəfə təyinat alıblar.

Azərbaycan Voleybol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, Eldar Zülfüqarov qadın voleybolçular arasında Çempionlar Liqasının B qrupunda yer alan Türkiyənin “Eczacıbaşı” və Fransanın “Levallua” klublarının qarşılaşmasında ikinci hakim kimi meydana çıxacaq.

Fuad Hacıyev isə yanvarın 23-də qadın voleybolçular arasında CEV kubokunun pley-off mərhələsində “Türk Hava Yolları” və Belçikanın “Asteriks” komandaları arasında keçiriləcək görüşün ikinci hakimi olacaq.

### “Sabah” klubu kapitanı ilə yollarını ayırıb



“Sabah” futbol klubu Elvin Camalovla yollarını ayırıb. Paytaxt təmsilçisinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, futbolçunun ayrılmaqla bağlı müraciətinə klub rəhbərliyi tərəfindən müsbət qarşılıq verilib və onunla yolların ayrılmasına şərait yaradılıb. Yarımmüdafiəçi bu gün səhər “Sabah” Futbol Mərkəzində klub rəhbərliyi, komanda yoldaşları və digər əməkdaşlarla sağollaşıb.

E.Camalov 2021-ci ilin yayından “Sabah”ın uğurları üçün çalışırdı. Uzun müddət Bakı klubunda kapitanlıq sarğısını daşıyan Azərbaycan millisinin üzvü “bayquşlar”ın heyətində ümumilikdə 113 oyun keçirib.

### “Formula 1” Azərbaycan Qran-Prisinə bilet satışı başlayıb

Bakıda keçiriləcək “Formula 1” Azərbaycan Qran-Prisi üçün bilet satışına start verilib. Bakı Şəhər Halqasından AZƏRTAC-a verilən məlumata görə, azarkeşlər mövsümün ən həyəcanlı şəhər yarışına biletləri www.azerbaijangp.com rəsmi veb-səhifəsindən əldə edə bilərlər. Həmçinin “Baku City Circuit” mobil tətbiqi üzərindən 20 faiz güzəştlə bilet almaq mümkündür. Bu fürsət yalnız fevralın 5-dək davam edəcək.

Bakı Şəhər Halqası Əməliyyat Şirkəti azarkeşlərə 4 günlük biletlər təqdim edir. Hər il olduğu kimi, 3 günlük tribuna biletləri ilə yanaşı, bilet sahibləri Pit zolağı gəzintisi imkanı əldə edərək, sevimli “F1” komandalarını, pilotları və onların qarajlarını yaxından izləmək təcrübəsi qazanırlar. Qeyd edək ki, ötən il Pit zolağı gəzintisində iştirakçı sayı rekord sayda olub. Yarış həftəsi ərzində keçiriləcək əyləncə proqramları ilə bağlı məlumatlar mütəmadi olaraq azarkeşlərə təqdim olunacaq.



Ötənilki Bakı yarışı həftəsonunda azarkeşlərin sayı son 8 ildə ən yüksək səviyyəyə çataraq, 76 min nəfərə yüksəlib.

75 illik yubileyini qeyd edən “Formula 1” bu il möhtəşəmliyi ilə yaddaşlarda qalacaq. Yüksək maraqla gözlənilən Azərbaycan Qran-Prisi bu il də dünya avtoidmanının diqqətini paytaxtımıza yönəldəcək.

Qeyd edək ki, Bakının 9-cu dəfə ev sahibliyi edəcəyi sürət yarışı sentyabrın 19-21-də reallaşacaq. Bu, mövsümün 17-ci Qran-Prisi olacaq.

**Allah rəhmət eləsin!**

Hüseyn Əliyev Naxcıvan Müəllimlər İnsititun Pedaqoji fakültənın Dekanı Samirə Həsənovaya əmisi

**ŞÜKÜR ASLANOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüzünlə başsağlığı verir


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 3817
Sifariş: 158
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova